# DOĞMA OCAĞIN ODU, İŞIĞI

"Beyləqanın güllü yazı" kitabında ikinci bölmə "Yurdum - ocağım" adlanır. Bu kitabın nəşr tarixini (1991) yada salsaq, belə bir bölmənin yazılmasını təbii hesab etməliyik. Çünki artıq imperiyanın çöküşü labüd idi. 70 il ərzində özünün dəmir caynaqları arasında saxladığı xalqlar tarixi sərhədlərinə çəkilmək və imperiyanın təsirindən çıxmaqdaydılar. Deməli, artıq hər bir xalq üçün "Yurdum, ocağım" istəyi zərurət kəsb edirdi. O cümlədən, Azərbaycan xalqı da öz azadlığına qovuşmaqla tarixi məskənlərinin sahibi olmaq iddiasındaydı. Əlbəttə, bu iddiaların necə çətinliklərlə üzləşdiyini həmin dövrün şahidləri kimi kifayət qədər yaxşı bilirik. Deməli, Azərbaycan yazıçısı da öz səngərində missiyasını, mənəvi borcunu vermək istəyi ilə öz xalqının yanında idi. Bir sözlə, Şəfəq Nasirin uşaqlar üçün yazdığı hekayələri yazıçı olaraq xalqına dəstək istəyindən yaranmışdı.

"Baba ocağı" hekayəsi "Yurdum, ocağım" silsiləsində birincidir.

Bəri başdan onu deyim ki, bu hekayəni oxuyan kimi yaddaşımı ilkin oyadan hiss Mirzə Cəlilin "Azərbaycan" məqalasiylə bağlı duyğular oldu. Bəlkə də birbaşa, bəlkə də hansı motivlərinə görəsə bu doğmalığı, bu yaxınlığı mən açıq-aşkar hiss elədim. Mirzə Cəlilin "Azərbaycan" məqalasində yadlıqdan cana doymuş, yad təfəkkürün təsiri ilə az qala yaddaşını itirməkdə olan insanlar Azərbaycana doğru yeriyir. "Baba ocağı" hekayəsində isə illər boyu sovet beynəlmiləlçiliyi, sovet qardaşlığı adı qədər yetkinlik çağına çatmış olan Məmməd də məhz Qarabağa, Kosalı kəndinə can atmaqdadır. Real həyatımızın indi yaşadığımız intizarları ilə Şəfəq Nasirin "Baba ocağı" hekayəsinin yurda can atımı duyğuları necə bir-birinə qovuşur. Və bu qovuşmanın təbiiliyi bir vaxt yazıçının qələmə aldığı hekayəsində əks olunan həyat həqiqətinin istədadla yazıya gətirilməsinin təsdiqidir.

Yazıçı qabaqcadan heç nə vəd vermir. Onun məqsədi deyil ki, Qarabağın gözəlliklərindən danışsın, Qarabağın sevilməyə layiq bir yer olduğunu qələmə alsın. Çox ola bilsin ki, bu məsələlər yazıçının fikrinin alt qatındakı həqiqətlərin ifadəsidir. Ancaq o, fikrinin üst qatında bir uşağın gedəcəyi kəndin necə yer olduğunu, uşağın nə üçün oraya can atdığını elə uşaqların anlaya biləcəyi tərzdə verməyə çalışır. Guya ki, yazıçının məqsədi elə budur. Amma yazıçı balaca Məmmədin ruhuna, varlığına daxil olaraq onu mənən qanadlandırır. Onu dünya xəritəsinin ən gözəl bir bucağına tərəf uçurur. Bu qanadlanma, bu uçurma nəticədə təkcə Məmməd üçün olmur. Dünyanı görməyə, anlamağa can atan hər bir uşaq üçün ruhu qida verir yazıçı: "Sonra Məmməd uşaqlardan ayrılıb özünü çöl-çəmənə, çiçəkli talaya salır. Otların arasına sərələnib göylərə baxa-baxa ürəyində bütün çəməni - Qarabağı qucaqlayır. Fərəhdən sinəsi atdanır. Bir anlıq elə bilir ki, qırmızı günəşin saçaqlarından sallanıb. Həmən saçaqlar bu dəcəl, dəlisov oğlanı göyün üzündə bütün dünyanı dolaşdırır. Göy dünyasını qarışrada Məmməd babanın dərsləri başlayır. O, balaca Məmmədlə ünsiyyətdə yaşadığı yerin təkcə canlı təbiətini deyil, həm də mənəvi təbiətini təmsil edir. Müəllifin çox böyük məharətlə Qarabağın mənəvi mühitini əks etdirən bir məqamın üzərinə işıq salır. Köklü Qarabağ sakini kimi Məmməd babanın muğamla bağlı söhbəti son dərəcə təsiredicidir. Elə bil ki, Məmməd baba muğamı Qarabağ sehrinin açarı kimi görür. O nəvəsi ilə söhbət edəndə nə Qarabağın gözəlliyindən, nə də muğamın nə üçün belə təsirli olduğundan, muğamı nə üçün sevməyindən danışmır. Düşünürəm ki, burada baba ilə nəvənin arasındakı dialoq, söhbət yazıçı düşüncəsinin açarı kimi çox yerinə düşər. Bircə kəlməyə də müdaxilə etmək olmur. Hətta hər hansı bir cümləni belə ayırıb təhlilə çəkmək istəmirsən. Çünki bədii mətnin içərisində hər şey var: "Qarabağ bülbülləri oxuyurdu. Məmməd baba nəfəsini çəkmədən qulaq asırdı. Uşaqlar oxuduqca ekranda göstərilən o yerləri - dağı, meşəni yaxşı görmək üçün az qala səkkiz göz istiyirdi baxa. Hərdən də dodaqaltı özözünə pıçıldayırdı: "Canım qurban olaydı, ay meşələrə".

"Qarabağ bülbülləri" ötürdü, Məmməd babanın göz yaşı eynəklərinin arxasından süzülüb yanaqlarına axırdı.

Balaca Məmməd təəccüblə babasına baxdı:

-Ay baba, niyə ağlayırsan?

-Kiri, bala, kiri, özün də qulaq as.

-Atam da həmişə televizorda biri muğamat oxuyanda baxır, ağlayır.

-Bəs sən ağlamırsan?

-Yox, mənim ağlamağım gəlmir.

-Heç gəlmir?

-Heç gəlmir.

-Gəlməlidi, gec də olsa, sənin də ağlamağın gələcək.

-Niyə ay baba?

-Çünki Qarabağın suyunu içmisən, damarlarından qarabağlı qanı axır. Heç ola bilməz ki, Qarabağın musiqisi səni ağlatmasın. Azca qalıb, bir azdan sən də ağlayacaqsan.

-Gözləyək görək də... Baba, heç bilirsən səni nə qədər çox istiyirəm?

-Nə qədər?

-Kəndimizi, həyətimizi nə qədər istiyirəmsə, səni də o qədər çox istiyirəm.

-Ay maşallah, ona görə deyirəm ki, babanı, atanı ağladan muğamat bir gün səni də ağladacaq. O ağlamaq yaxşı ağlamaqdır, oğul. Dincəlməkdi, yaşamaqdı, yurdunu, el-obanı duymaqdı, sevməkdi, kövrəlməkdi".

Mətnin psixoloji təsiri o qədər güclüdür ki, sanki parçanı oxuduqca arxa plandan Qarabağ, muğam ifasını, Qarabağ şikəstəsini dinləyirsən. Heç özün də bilmirsən ki, Qarabağ dərdi necə daxili aləmində ocağa, alova döndü. Və səni yandırıb yaxmağa başladı. Oxucunun canına bir istilik gəlir, hərarət gəlir. Və elə bunun özündə də 30 il bundan əvvəlki hadisələrin bugünkü Qarabağ savaşı ilə bağlı davamını görürük. Deyərdim ki, bu əsil yazıçı uzaqgörənliyidir. Yazıçı ağrısının, intizarının günümüzlə səsləşən duyğularıdır.

Balaca Məmməd Qarabağda olduğu dövrdə baba Məmməddən dərslər alır. Qarabağın, doğma kəndin ulu keçmişini öyrənir. Əslində, yazıçı elə bununla öz missiyasını yerinə yetirir.

Azərbaycan ədəbiyyatında sovet dövründə çox dəyərli əsərlər yaradılıb. Görkəmli sənətkarlarımız insan talelərini sənətkarlıqla sözə gətiriblər. Amma deyərdim ki, bu böyük ədəbi yaradılışın önündə Qarabağ ağrısı unudulub. Sanki kimsənin ağlına gəlməyib ki, Qarabağ faciəsi daha böyük dəhşətləri ilə XX əsrin əvvəlində olanları bir də təzədən taleyimizə gətirərər. Şəfəq Nasir bir uşaq düşüncəsinə Qarabağ aləmini zəngin tarixi ilə amma bir uşağın qavraya biləcəyi qədərdə, dərəcədə gətirə bilir. Keçmişin tarixləşmiş hadisələri Qarabağın köklü insanları bu dərslərin əsas obrazı olaraq necə balaca Məmmədin yaddaşına hopursa, elə bu günün də oxucusunun yaddaşında özünə yer eləyir. Şəfəq Nasir məharətlə baba-nəvə arasındakı ünsiyyəti ən müxtəlif çalarla bəzəyərək, ona nağıl fonu verir və bu da hekayənin oxunaqlılığını təmin edir. Hər bir uşaq hekayənin sonluğunu bir nağıl sonluğu kimi gözləyir. Müəllif hekayənin adını təsadüfi olaraq "Dirilik alması" qoymayıb. Doğrudur, əsərdə az qala əfsanəvi gücdə olan alma ağacından söhbət gedir. Amma əsərin ümumi motivi təlqin edir ki, biz Qarabağı bütövlükdə dirilik alması kimi qavrayaq.

Bəli, Qarabağ bizim üçün dirilik almasıdır, - müəllif doğru deyir.

"Afaqın quzusu" hekayəsində uşaq aləminin saflığı, təmizliyi tərənnüm olunur. Məmməd ilk baxışdan dəcəl, bir qədər də kobud uşaq təsiri bağışlayır. Amma hadisələrin gedişində onun qanqan deyən igidlik, qoçaqlıq, cəngavərlik iddialı görünüşünün arxasında necə mülayim, kövrək doğmalıq ünsiyyətinə meyilli bir uşaq olduğu üzə çıxır.

Hələ Bakıdaykən kəndə çatandan sonra görəcəyi işlərdən, planlarından ilə insanlar milli hisslərdən, doğma yerlərə bağlılıq duyğularından məhrum edilmişdilər.

"Baba ocağı"nın gözəgörünməz cazibəsi bir vaxt bu ocağın qorlanması ilə yolu uzaqlara düşmüş zərrələri indi geriyə çağırır. Müəllif bu ümumi ideya xəttini balaca bir uşağın əslinin, soyunun, məskun olduğu dədə-baba yurdunun sehri, cazibəsi ilə verməyə çalışır. Məmməd hekayənin əsas qəhrəmanıdır. Aşağı sinif şagirdidir. Ancaq onun yaddaşında bir Qarabağ adlı möcüzəli diyar var. Orada bir Kosalı kəndu var. Məmməd bütün dərs ilinin qurtarmasını ay-ay, həftə-həftə, gün-gün gözləyib. Axır ki, gəlib çatan vaxtın sevincli və intizarlı məqamlarını yaşamaqdadır. Yazıçı Məmmədin timsalında yurduna can atan varlığın necə böyük - sonsuz bir istək yaşadığını verir. Yazıçı yurda can atmanın gözlə görünməyən, qeyri-adi bir duyğu olduğunu təbii təsvirləri ilə canlandırır: "Kaş o axşam Məmmədi görən olaydı. Sevinci bir əyləncəydi, tamaşaydı. Uşaq elə bil çəkisiz olmuşdu, indicə ayaqları yerdən üzüləcəkdi. Quş olub Bakıdan düz Qarabağa - kəndlərinəcən nəfəs dərmədən, qanad saxlamadan uçacaq, uçacaqdı..." Mən bu iki, üç cümləni burada nümunə gətirmədən, ancaq ümumi motiv içərisində qeyd edərək keçmək istəyirdim. Ancaq biz bəzən istəklərimizlə yox, əsil həqiqətlərlə yaşadığımız, intizarını çəkdiyimiz məqamların təsiri ilə barışmalı oluruq. Bu gün Azərbaycan Ordusunun Qarabağ uğrundakı savaşlarının sərt həqiqətləri altında varlığına hopmuş duyğuları necə sözə gətirməyə bilərəm? Bu gün Qarabağ hər bir azərbaycanlının ürəyində çırpınan duyğulardır. Və hər birimiz həmin duyğuların bəxş elədiyi qanadlarla tarixi həqiqət uğrunda çarpışan ordumuzun yanına uçmaq, əsgərlərlə birgə həsrət qaldığımız yurdlarımıza yerimək istəyirik. Və heç şübhəsiz, bu gün yaşının kifayət qarış gəzir. Məmməd gözləriylə görür, ürəyilə duyur ki, bu dünyada öz kəndindən, öz torpağından yaxşısı yoxdu. Məmməd istiyir ki, elə ordanca - günəşin saçaqları içindən bütün dünyaya haray çəkib desin: Ehe-hey-hey-y-y, eşidirsinizmi, yer üzündə babamın ocağından istisi, babamın torpağından yaxşısı yoxdu, yoxdu... O gecə Məmməd yuxusunda səhərəcən göy dünyasını dolaşırdı..."

Mənə elə gəlir ki, Şəfəq Nasirin bu təsvirini oxuyan hər bir yeniyetmə, hər bir gənc yazıçının yazı aləmindən çıxıb üzü Qarabağa doğru qanadlanar. Mənə elə gəlir ki, hər hansı bir yeniyetmə bu parçadan sonra başını qaldırıb göy üzünə baxar və üzü Qarabağa uçan Məmmədi görmək istəyər, o da onun arxasınca havalanar. Və çox keçməz ki, biz də başımızı qaldırıb səmaya baxsaq, üzü Qarabağa qədər bitməyən ruhların qatarını görərik.

Mənə elə gəlir ki, hekayənin əsas ağırlıq mərkəzi elə bu hissədə başa çatır. Əlbəttə, hekayənin sonuna doğru yol intizarları, təbiət bilgiləri, bir sözlə, üzü Qarabağa doğru, baba ocağına doğru gedən yolun tozu, torpağı da Məmmədin qarşısını kəsə bilmir. Və o, baba ocağına çataraq öz xoşbəxtliyinə qovuşur.

"Yurdum, ocağım" silsiləsində ikinci hekayə "Dirilik alması" adlanır.

Məmməd artıq kənddədir. O, şəhərdən babasına gətirdiyi hədiyyələri birərbirər sadalayır, hər biri haqqında məlumat verir. Bu hədiyyələr onun çəkdiyi rəsmlərdir. Əlbəttə, həmin rəsmlərin mövzusu demək olar ki, şəhər həyatı ilə bağlıdır. Gəmilər var, təyyarələr var, dəniz var, bir sözlə, böyük şəhər Məmmədin gözündə hansı əlaməti ilə görünürsə, bunların hamısı var. Amma, hələ ki, kənd yoxdur. Və yazıçı da heç tələsmir ki, Məmmədə kəndi göstərsin, Qarabağı göstərsin. Bunun üçün o, özünəməxsus astagəlliklə, yazıçı təmkini ilə hadisələri asta-asta hərəkətə gətirir. Budanışan Məmməd bacısı haqqında heç bir xoş söz demir. Sanki onu qız olduğuna görə özünə yaraşdırmır. Amma maraqlı bir hadisə bu qardaş-bacını təzədən bir-birinə bağlayır. Bunun üçün yazıçı quzu əhvalatını hekayəyə gətirir. Ustalıqla körpə quzunun iki uşağın maraq dairəsində onları bir-birinə bağlayan ünsiyyət vasitəsinə çevirir. Məmməd quzunun bacısı Afaqın qucağında olduğunu görəndə buna möcüzə kimi baxır. Az qala inanmır ki, quzu onun bacısı Afaqa bu qədər isinişə bilər.

Yazıçı ustalıqla balaca oxuculara təlqin edir ki, öz mehribanlığınızla, doğmalığınızla ətrafda hər kəsin rəğbətini qazana bilərsiniz, hər kəs sizə sevgi ilə yanaşar. Müəllif əsərin sonuna yaxın Afaqın dilindən verdiyi kiçik bir pritça ilə uşaqları yenə təbiətə, ilkinliyə səsləyir: "Afaq dil-dil ötdü: - Bə nə, hiss eləyirəm. Hər gün elə həyətdə gəzirəm də. Babam deyir ki, ilimiz günümüz təzələnir, onunçün hər yerdən belə xoş ətir gəlir. Təkcə yayda olur ey, belə günlər... Məmməd sənin heç xamlıqdan xəbərin yoxdur. Bilirsən, orda otların arasında necə qəşəng yaz gülləri açılıb. Gedək yığaq, anamıza gətirək". Beləliklə, iki uşaq aləminin arasındakı ziddiyyət yoxa çıxır. Uşaqların bir-birinə həqiqi, təbii sevgisi üzə çıxır və bundan fərəflənən ananın sevincini görmək çətin deyil.

Şəfəq Nasir bir daha xatırladır ki, bir ana üçün övladlarının mehribanlığını görməkdən üstün heç nə yoxdur.

Burada ana obrazını Vətən kimi də təsəvvür etmək olar və bu təsəvvürdə mahiyyət daha qabarıq dərk olunar.

*2020*